# "SPECA-nın Zirvə görüşü Prezident İlham Əliyevin təşəbbüsüdür"

"Azərbaycan bu gün müxtəlif platformalar, o cümlədən MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı çərçivəsində Mərkəzi Asiya ölkələri ilə fəal əməkdaşlıq edir. Bu fəaliyyət vahid geoiqtisadi məkanın yaradılması, çağırış və təhdidlərin qarşısının birgə alınması üçün Mərkəzi Asiya regionu ilə qarşılıqlı fəaliyyətə yönəlib".



Bu sözləri Milli Məclisin deputatı Kamran Bayramov Bakıda keçirilmiş "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" sərgisinin əhəmiyyəti barədə qəzetimizə danışarkən deyib.

Bakıda keçirilən SPECA-nın Zirvə görüşünün mühüm hadisə olduğunu deyən deputat qeyd edib ki, SPECA-nın Zirvə görüşü Prezident İlham Əliyevin təşəbbüsüdür və bu təşəbbüsün irəli sürülməsi Avrasiya qitəsində yeni, daha əlverişli, daha ümidli geoiqtisadi konyunkturanın formalaşmasına xidmət edir: "Təsadüfi deyil ki, Zirvə görüşündən bir qədər əvvəl Prezident İlham Əliyev Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə vahid geoiqtisadi və geosiyasi formatın formalaşdırması barədə mühüm fikir bildirib".

"Xüsusilə qeyd edilməlidir ki, xarici dövlətlər və beynəlxalq təşkilatlar Qafqaz regionunu, Mərkəzi Asiya ölkələrini vahid və bütöv bir məkan hesab edir. Onlar həqiqətdən uzaq deyillər. Ona görə də BMT-nin Xüsusi Proqramı fonunda Prezident İlham Əliyev Mərkəzi Asiya regionu ilə qarşılıqlı fəaliyyətə dinamika vermək, onu daha da genişləndirmək üçün yeni təşəbbüslər irəli sürür, yeni imkanlar yaradır. Bununla yanaşı, Azərbaycan sənaye kompleksini inkişaf etdirir, texnoparklar yaradır, enerji istehsalını artırır. Təsadüfi deyil ki, biz həm də regionda "yaşıl enerji"nin inkişafında irəlidəyik, çünki bərpa olunan enerji mənbələrimiz çoxdur. Bütün bunlar Xəzər dənizi regionunun digər dövlətləri üçün böyük maraq kəsb edir", - deyə K.Bayramov əlavə edib.

Onun sözlərinə görə, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı da daxil olmaqla, müxtəlif formatlarda əməkdaşlığı təkcə iqtisadi inteqrasiyanı artırmağa deyil, həm də o qədər uzaq olmayan regionlarda baş verən yeni çağırışlar və risklər fonunda bir-birini dəstəkləməyə imkan verir: "Azərbaycan qlobal inteqrasiya işinə daha əhəmiyyətli töhfə vermək üçün Mərkəzi Asiya ölkələri ilə birlikdə nəqliyyat və enerji dəhlizlərinin imkanlarından istifadə etmək niyyətindədir. Bu da Qafqaz və Mərkəzi Asiyanın Avrasiya vahid sisteminin ayrılmaz hissəsinə çevrilməsinə, zamanın çağırışlarını birlikdə qəbul etməyə və hadisələri qabaqlamağa xidmət edəcək".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 26 noyabr, № 258.- S.3.